Bilal ALARLI

# KÜRDÜLƏR VƏ QIYHALAR



Kürdülər və qıyhalar yurdumuzun Yardımlı bölgəsindən qələmə alınıb. Yardımlı bölgə folklorunu xüsusi folklor məclisləri yaşatmışdır ki, buraya toylar, nişan gecələri, qız toyları, yas mərasimləri, nağıl gecələri, aşıq yığnaqları daxildir. Folklor söyləyənlər peşəkar və qeyri-peşəkar deyə seçilmişlər. Peşəkarlar sırasına toy şənliklərini aparan qadınlar və yas məclislərindəki ağıçılar aiddir. Aşıqlar da bu qrupdandır. Lətifə, bayatı, kürdü deyənlər və başqalarıdır. Yardımlının Alar kənd sakini, 1930-cu il təvəllüdlü Kərbəlayı Həvəs İmpirat qızından qələmə alınmış kürdülər həm məzmununa, həm də formasına görə maraq doğurur. Nəğmə şəklində söylənən kürdülərin mahnıbaşısı olmur və onlar bayatıya bənzəsə də, misraların sayına görə fərqlənir. **"Gəlin kürdüləri"ndə** qaynana-gəlin münasibətləri, təzə gəlinin ərindən umacağı və başqa məsələlər yer alırdı:

Qapuzda hovuz,
Tuman al mənə.
Yaşıl qanovuz,
Tuman al mənə.
Geyim, sallanım,
Sən də bax mənə.

Bazarda maşa,
Bəg oğlu Paşa.
Bazara bir çit gəlib,
Gülləri qoşa.
Onnan mənə almason,
Gəl məni boşa.

Digər bir kürdü **"Toy xeyir-duası"**dır, özü də bəy tərifini xatırladır:

Kərbəla yolunda saldırdım günbəz,
Dərsimi oxudum, dedilər, bilməz.
Kəmərüy qurşasın Gözəgörünməz,
Bala, mən xeyrüy verdim,
Allah da versin!

Kərbəla yolunda saldırdım hamam,
Dərsimi oxuyub eylədim tamam.
Kəmərüy qurşasın on iki imam,
Bala, mən xeyrüy verdim,
Allah da versin!

Kürdü - boynuna, ətəyinə, yaxasına və qollarının qırağına xəz tikili üst geyimidir. "Kürdünağırı" adlı yallı tərzində oyun havası da var. Kürdü bəzən hay-küylü musiqi havasına da deyilir. Kamançada çalınan lirik musiqilərdən biri də "kürdü" adlanır. Azərbaycan muğamında bu adda şöbələr də var. 1926-cı il təvəllüdlü, sinədəftər Şahverənova Zöhrə Hacəli qızının söylədiyi **"Keşgə bi quş oleydim"** kürdüsü digər kürdülər kimi öz quruluşuna görə bayatıdan fərqlənir:




Keşgə bi quş oleydım, quş
oleydım, ey,
Qanadı gümüş oleydım, ey,
Göreydim hanki vilayətdəsən, ey.
Atam qurban qardaş, ey,
Yanını almış oleydım, oy.

Qoy sənə mən ağliyəm,
Mən diyəm, mən ağliyəm.
Hicran mənimnən aşla,
Gəldükcən qan ağliyəm, oy.

Əlimdə nar dilimi, nar dilimi,
Ay Allah, tutmuşam nar dilimi, oy.
Der özgələr nə bilər, oy,
Aman fələk, ay fələk,
Yar bilər, yar dilini, oy.

Yardımlının folklor örnəkləri içərisində **qıyhalar** da xüsusi yer tutur. Qıyha - ağı janrının bir növüdür. Qıyha çəkmək, çığırmaq, nalə, qiyyə çəkmək anlamındadır. Qıyha müstəqil janr kimi formalaşmasa da, ağının bir növü kimi maraq doğurur. **"Getdi, yarım qəyitmədi"** qıyha gəraylısı 1908-ci ildə Jiy kəndində doğulmuş, Abasallı kəndinə gəlin köçmüş, sinədəftər Əliyeva Qızılgül Mustafa qızının dilindən alınıbdır. Bu qıyha ərini müharibədə itirmiş qadın tərəfindən söylənib:

Belə vurdu qolum şişdi,
Qolumnan qolbağım düşdü.
Yoldaşım fronta düşdü,
Getdi, yarım qəyitmədi.

Paltarın geydi əyninə,
Məni yandırdı odinə.
Dörd körpə ümidinə
Qoydi, yarım qəyitmədi.

İrəflərə düzdüm kasa,
Balalarım batdı yasa.
Bəhram, oldu ömrüm qısa,
Getdi, yarım qəyitmədi.

Alnımda teli büzümdə,
Heç kim olmaz mən dözümdə.
Arzumu qoydi gözümdə,
Getdi, yarım qəyitmədi.

Qızılgül nənənin dilindən alınmış **"Qar gəley"** qıyhası da eyni məzmundadır:

Ha baxiyəm birər-birər qar gəley,
Kətan köynək ağ bədənə dar gəley.

Aləm üçün qış günü də gülüstan,
Mən fağıra yay günü də qar gəley.

Alar kənd qəbristanlığındakı qəbirlərin başdaşı və sinədan yazıları da - qəbirdə yatanın məziyyətlərinə bir işarədir. Aların özündə 17 qəbristanlıq var ki, bunlar müxtəlif dövrlərdə salınıbdır. Təzə qəbristanlıqdakı başdaşılarından birinin yazısı təsəlli, ürək-dirək verir:

Üstündən yelmi əsdi?
Budağımı kim kəsdi?
Ölüm haqdı onsuz da,
Fələk niyə tələsdi?

Digər qəbrin sinədanında görün nə deyilir:

Atamın ümmanca dərdi-səri var,
Ata zəhmətindən ellər halidir.
Övlada verilən bütün medallar
Ata sinəsindən asılmalıdır .

"Qismətinə" daha müdrik şeir parçası düşənlər də var:

Nə baxırsan mənim kimi?
Çox baxmışam sənin kimi.
Olacaqsan mənim kimi,
Baxacaqlar sənin kimi.



Ağı - hələ ki tam öyrənilməmiş folklor nümunəsidir. Ağılar qədim dövrlərdə yuğ nəğmələri kimi tanınırdı. Dəfn mərasimlərində "ağıçılar" qopuzun müşayiəti ilə xüsusi nəğmələr oxuyardılar. Ağılar formasına və məzmununa görə fərqlənir. **Şivən** - ölənin başı üzərində ah-fəğanla oxunur, ölənin yaxınlarının yasa gələnlərə öz dərdlərini izhar etmək üçün **qıyha** çəkilir. **Ağı-epitafiyalar** ölənin başdaşına və sinədanına yazılır, mərhumun şəxsiyyəti haqqında məlumatı onun qəbrini ziyarətə gələnlərə çatdırır.

Bölgələrdəki folklor nümunələrinin öyrənilməsi təkcə mətn baxımından deyil, həm də ahənginə görə də maraq doğurur...

◆